**UDC:** 32.; 327.; 94.(479.24).; 908.(479,24).
**LBC:** 63.3(0=…); 63.3(5 e)64
**MJ №** 337
10.33864/2617-751X.2025.v8.i6.116-124

# THE ETIOLOGY OF DIVINE LOVE IN SUFISM AND GNOSIS

**Ilhama Mammadova***

**Abstract.** The sacred scriptures bestowed upon us by our Almighty affirm that the foundation of the universe is established upon divine love. Every element in creation- from the minutest atom to the vast cosmos- exists in harmonious unity. Even when disrupted, these elements tend to return to their primordial state, guided by the gravitational force of divine love. This love governs all, and those disconnected from it remain estranged from their true essence. This article explores the concept that divine love is the cornerstone of Sufi mysticism and gnosis. It is a recurring theme in the teachings of great Sufi masters. One such luminary is Jalal al-Din Rumi, whose profound expressions of divine love illustrate its depth and universality. Rumi's perspective emphasizes that the essence of love is boundless, with each verse interconnected, reflecting the infinite nature of divine affection. Before delving into Rumi's ocean of love, it is essential to recognize that divine love manifests in various forms. This study examines the distinctions between divine love and human affection, highlighting their influence on Sufi practitioners.

**Keywords:** Sufism, gnosis, divine love, Rumi, poetry, mysticism

* Lecturer,
Doctoral student of Baku State University; Baku, Azerbaijan
E-mail: ilhama.mamedova72@gmail.com
https://orcid.org/0009-0001-4118-8893

**To cite this article:** Mammadova, I. [2025]. THE ETIOLOGY OF DIVINE LOVE IN SUFISM AND GNOSIS. *“Metafizika” journal, 8*(6), pp.116-124.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.116-124

***Article history:***
*Received: 18.02.2025*
*Accepted: 04.08.2025*
*Published: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 327.; 94.(479.24).; 908. (479,24).
**ББК:** 63.3(0=…); 63.3(5 е)64
**MJ №** 337
10.33864/2617-751X.2025.v8.i6.116-124

# ЭТИОЛОГИЯ БОЖЕСТВЕННОЙ ЛЮБВИ В СУФИЗМЕ И ИРФАНЕ

**Ильхама Мамедова***

**Абстракт.** Священные писания, ниспосланные нам Всевышним, ясно свидетельствуют о том, что основа мироздания заложена в божественной любви. Вся вселенная, от мельчайших частиц до гигантских структур, функционирует в гармонии, управляемой этой любовью. Даже при разрушении под воздействием внешних сил, всё стремится вернуться к своему изначальному состоянию, что подтверждает силу божественной любви как управляющего начала. В статье анализируются аяты и хадисы, подтверждающие, что основой суфийского пути и ирфана является любовь. Великие суфийские мыслители неоднократно подчеркивали это в своих трудах. Одним из выдающихся воспевателей божественной любви является Мевляна Джалаладдин Руми, чья поэзия сравнима с безбрежным океаном, где каждая капля отражает глубину и мощь любви. Перед тем как погрузиться в океан любви Мевляны, следует отметить, что божественная любовь проявляется в различных формах, посланных на землю Всевышним. В статье исследуется различие между божественной любовью и страстью, а также их влияние на суфиев.

**Ключевые слова:** суфизм, ирфан, любовь, божественная любовь, Мевляна, поэзия

* Преподавательница, докторант Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: ilhama.mamedova72@gmail.com
https://orcid.org/0009-0001-4118-8893

**Цитировать статью:** Мамедова, И. [2025]. ЭТИОЛОГИЯ БОЖЕСТВЕННОЙ ЛЮБВИ В СУФИЗМЕ И ИРФАНЕ. *Журнал «Metafizika», 8(6),* с.116-124.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.116-124

***История статьи:***
*Статья поступила в редакцию: 18.02.2025*
*Отправлена на доработку: 25.03.2025*
*Принята для печати: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 327.; 94.(479.24).; 908. (479,24).
**KBT:** 63.3(0=…); 63.3(5 e)64
**MJ №** 337
10.33864/2617-751X.2025.v8.i6.116-124

# TƏSƏVVÜF VƏ İRFANDA İLAHİ EŞQİN ETİOLOGİYASI

**İlhamə Məmmədova***

**Abstrakt.** Ulu tanrımız tərəfindən bizə ərməğan göndərilmiş müqəddəs kitabları oxuduqca bir daha aydın şəkildə sübut olunur ki, Haqq-təala bu dünyanın və külli-kainatın özülünü özünəməxsus ilahi eşqlə qoymuş, mayasını eşqlə yoğurmuşdur. Kainatda və Yer üzündə hər nə varsa- kiçik, mikroskopik atom, neytron və protonlardan tutmuş nəhənglərə qədər hər şey bir-birini harmonik şəkildə tamamlayır. Lakin özünəməxsus digər qüvvənin təsiri nəticəsində dağılarsa, ən axır həddə şəklini belə dəyişərsə də yenə də əzəli halına qayıdır. Hər şeyi idarə edən böyük cazibə qüvvəsi Tanrının bizə göndərdiyi eşq lə idarə olunur. Əslinə, əzəlinə, başanğıcına dönə bilməyən isə eşqdən məhrumdur. Məqalədə verilən ayələr və hədislər onu göstərir ki, irfani məsləyin və təriqətin əsası eşqdir. Bunun özü də dəfələrlə böyük təsəvvüf xadimləri tərəfindən şərh edilmişdir. İlahi eşqi tərənnüm edən dühalardan biri də Mövlana Cəlaləddin Rumidir. Mövlanının eşqinin həqiqəti dalğalı bir dənizdir ki, hər damlasının dalğadan, hər dalğasının dəryadan fərqi yoxdur. Elə buradandır ki, hər hansı bir hekayədə verilən beytin mənası digər rəvayətdə verilən beytlə əlaqəlidir. Mövlananı eşq dəryasına səyahətə çıxmazdan əvvəl qeyd etməliyik ki, Allah-təala tərəfindən yer üzünə göndərilən ilahi məhəbbət müxtəlif «surət»lərdə təzahür edir. Məqalədə ilahi məhəbbət və eşq arasındakı fərq məsələsi tədqiq olunur. Eyni zamanda onların sufilərə təsiri araşdırılır.

**Açar sözlər:** təsəvvüf, irfan, eşq, ilahi, Mövlana, şeir

* Bakı Dövlət Universitetinin müəllim və doktorantı; Bakı, Azərbaycan
E-mail: ilhama.mamedova72@gmail.com
https://orcid.org/0009-0001-4118-8893

**Məqaləyə istinad:** Məmmədova, İ. [2025] TƏSƏVVÜF VƏ İRFANDA İLAHİ EŞQİN ETİOLOGİYASI. *“Metafizika” jurnalı, 8*(6), səh.116-124.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.116-124

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 18.02.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 25.03.2025*
*Çapa qəbul edilmişdir: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Ulu tanrımız tərəfindən bizə ərməğan göndərilmiş müqəddəs kitabları oxuduqca bir daha aydın şəkildə sübut olunur ki, Haqq-təala bu dünyanın və külli-kainatın özülünü özünəməxsus ilahi eşqlə qoymuş, mayasını eşqlə yoğurmuşdur. Kainatda və Yer üzündə hər nə varsa- kiçik, mikroskopik atom, neytron və protonlardan tutmuş nəhənglərə qədər hər şey bir-birini harmonik şəkildə tamamlayır. Lakin özünəməxsus digər qüvvənin təsiri nəticəsində dağılarsa, ən axır həddə şəklini belə dəyişərsə də yenə də əzəli halına qayıdır. Hər şeyi idarə edən böyük cazibə qüvvəsi Tanrının bizə göndərdiyi eşq lə idarə olunur. Əslinə, əzəlinə, başanğıcına dönə bilməyən isə eşqdən məhrumdur.

## 2.Sufilərin baxışında eşq

Bu zaman belə bir sual ortaya çıxır: “Bəs nəyə görə sufilər Allahla onun məxluqları arasındakı əlaqəni aşiqanə qəbul edirlər?” – Sözsüz ki, insanın mənəviyyatının düşdüyü vəziyyətləri nəzərə alaraq mövcudatın əzəli başlanğıcı olan Mütləq camalla onun arasında olan əlaqənin sevgi şəklində olduğunu inkar etmək mümkün deyil. Sufilərin əqidələrinə görə bu əlaqə düzdür və düzgün şəkildə olduğuna görə də iki başlı, yəni ikitərəflidir: Allah və insanı bir-birinə bağlayır. Daha dəqiq söyləsək aşiqlə Məşuq arasında aşiqanə bir bağlılıqdır: “*Vəslin müştağı olan sufinin Haqqın mərifətinə ehtiyacı var. Lakin bu vasitə ilə gözlənilən mərifət batini və qəlbi vəcd, işraqın etdiyi kəşfdir. Elə bu səbəbdən də ilahi eşqdən söhbət açan sufilərin fikrincə eşq yolunda əsas qayə və məqsəd cüzi əqlin yolu yox, əksinə, hər şeyi idarə edən Tanrının camal və kamalını tapmaqdır. Əgər İlahi eşq külli əsl yəni mütləq zəka şəklində təzahür edərsə, eşqin kamilliyi elə həmin mütləq zəkadır*” [5, s.10].

Hicri tarixilə səkkizinci əsrin Mövləviyyə təriqətinin şeyxlərindən olan Şeyx Əhməd Rumi dörd şeyi yad edərək deyir:

"أول ما خلق الله نورى" و "أول ما خلق الله القلم" و "أول ما خلق الله العشق" و "أول ما خلق الله العقل"

Və əlavə edir: “*Bu dörd hədis vahid mə`nadadır və Allahın elçisi bunları ardıcıl şəkildə buyurmuşdur*” [2, s.115].

## 3.İrfanda eşq

Ancaq psixoloji baxımdan arifin sevib sevilməyə ehtiyacı vardır. İlkin mərhələdə tənhalıq məhəbbətindən azad olma və qaçışdır. Tənhalıq elə bir işgəncədir ki, iman sahibləri həmişə onun əzab-əziyyətindən qorxurlar. Məşuq burada qüdrətli, hifz edən, hər işə kömək olan, insanlara zəmanət verə biləcək bir hami yə`ni ümidverici hisslərin səbəbi kimi çıxış edir və aşiqin eşq dövlətində özünə etimad qazanır. Özünün hər şeyə qabil olduğunu və ləyaqətini nümayiş etdirir. Beləliklə yəqin edir ki, aşiq onun (məşuqun) qədrini bilir. Qeyd etmək lazımdır ki, aşiqin (ya məşuqun) mövqeyi və şən`i nə qədər yüksək olarsa, məşuqun (ya aşiqin) riayəti və fərəhi bir o qədər çox olar. Nəticədə isə məşuq - Allahın qarşısında olmaq budur ki, aşiq arifin ehtiyacları

Haqq-təalanın möhtəşəm hüzurunda qəbul olunur, Onun qədrini bilməyi kamil şəkildə üzə çıxarır. Ən nəhayət, onun vücudunu ərz etdiyi və özünü göstərdiyi bu halı şəfa tapır. Əgər aşiq arif öz fənasını Allahda görürsə, baqiliyi də onda tapmağı elə bu səbəbdəndir. Bu sadəlik, özünü alçaltma, əksikliklərə məruz qalma, fəqirlik sadəcə olaraq zülm istəyindən irəli gəlmir. Bəlkə ondan irəli gəlir ki, eşqin dövlətini bütün fərr və cah-cəlalı ilə tapsın, bütün xalqın yanında başı uca və barmaqla göstərilən bir şəxsə çevrilsin, dirçəlsin. Çünki özünü kiçik tutmaqla və köməksizliyini, ehtiyaclarını izah etməklə Allah təalanın məşuquna çevrilmişdir ki, ondan yüksək ola biləcək aşiq yoxdur [4, s.35].

Nəticədə aşiq arif bu xoş sevdalı eşqin yolu ilə mənəvi sakitlik və sülhə çatır. Bu elə bir sakitlik və rahatlıqdır ki, ruh həmin dövlətə çatanda bütün təmtəraq, meyl, qürur və namusdan azad olur. Ondan sonrakı təlaş, çalışma, vəcd və cəhd onun ətaləti deyil, bəlkə də onun özündə rahatlığı, azadlığıdır [6, c.1, s.162].

Sufi şeyxləri qeybi və ya ilahi təbiblər olmuşlar ki, tutduqları yol və qaydalar xəstəliyin və onun dərmanının təyinində bir növ psixoloji analizdir. Elə bu vaxtdan da onlar böyük psixoloqların sırasına aid edilirlər. Ariflərin nəfsin hallarını tanımaqda və hadisələri qabaqcadan demək, yuxu yozumları elmində bəsirət və intuisiya qabiliyyətləri dəqiq idi [4, s.36]. Bu barədə «Məsnəvi-ye mənəvi»dən gətirəcəyiniz sitatların şərhində danışacağıq.

Cəlal Səttari çox maraqlı bir fakt irəli sürür. Belə ki, müqəddəs «Qurani-Kərim»də eşqdən yox, məhəbbətdən (sevgidən) söhbət getmişdir. Beləliklə də «Qurani-Kərim»dən aşağıdakı ayələri sitat gətirir:

«Ali-İmran», ayə 31: «Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayan və mərhəmətlidir» [1, s.46].

«Əl-Maidə» surəsi, ayə 54: «Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, bilsin ki, Allah (onun yerinə) elə bir tayfa gətirər ki, Allah onları, onlar da Allahı sevərlər. Onlar mömin-lərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allahın lütfü genişdir və o, hər şeyi biləndir» [1, s.96].

«Əl-Bəqərə» surəsi, ayə 165: «İnsanların içərisində Allahdan qeyrilərini Allaha şərik qoşub, onları Allahı kimi sevənlər də vardır. Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir. Əgər özlərinə zülm edənlərin vaxtında görəcəkləri əzabdan xəbərləri olsaydı, onlar bütün qüvvət və qüdrətli Allaha məxsus olduğunu və onun əzabının şiddətli olacağını bilərdilər» [1. s.23].

Ancaq eşq məhəbbət (sevgi) deyil. Məhəbbətdən sonra şövq gəlir və yalnız şövqdən sonra eşqdir ki, bu da, məhəbbətin içində qərq olmuşdur. «Başqa sözlə desək «eşq» məhəbbətin (sevginin) nəticəsi, və ya məhəbbətin ifratı»dır.

Şah Nemətullah Vəlinin izahına və klassifikasiyasına görə bu ilahi məqam dördlükdür ki, birincisi «حب» yəni məhəbbət, digəri «ودا», yə'ni vida, üçüncüsü «عشق» eşqdir ki, bu da məhəbbətin ifratıdır və dördüncüsü «هوا» qızğın eşqdir" [4, s.36].

Beləliklə, «حب»-un şiddəti, yəni məhəbbətin şiddəti eşq adlanır. Bu səbəbdən də deyirlər ki, eşq elə bir məhəbbətdir ki, öz həddindən kənara çıxmışdır və ya eşq kamil məhəbbətdir [4, s.74].

Hətta Bertelsin təbirincə desək şeirlərində sufizmi ibtidai şəkildə təsvir edən və ilk sufi şairəsi kimi tanınan Rabiyənin yaradıcılığında "يحبهم و يحبونه" (sevir ki, onu sevsinlər) ayəsinə istinadən məhəbbət (حب-hobb) İlahi eşq kimi işlənmir və onu öz məşhur bir rübaisində təhlil edir [4, s.37].

Eynülqüzatın yazdığına görə, məşhur bir hədisdə deyilir: «O, öz bəndəsini özünün aşiqi edir, elə ki, bəndə aşiq olur ona söyləyir: «Sən bizim aşiqimiz və (məhəb)-(محب sevgilimizsən və Biz sənin məşuqun və həbibin... sən istəsən də istəməsən də» [4, s.38].

Bunlardan əlavə dörd məşhur müqəddəs hədis bunlardır:

**3.1.**Aşiq olan, sevən və eşqində məqsədyönlü olan onu başqalarından gizlədən hər bir kəs əgər ölərsə, ölümü şəhadət hökmündədir.

**3.2.**Hər kim ki, məni axtardı, tapdı. Məni tapan, Məni tanıdı. Məni tanıyan Mənə ürək bağladı. Mənə ürək bağlayan aşiqim oldu. Aşiqim olanın aşiqi oldum. Aşiq olduğum kəsi öldürdüm. Öldürdüyümün qanbahası mənəm. Hər kimin qanbahası məndədirsə, mən onun qanbahasıyam.

**3.3.**Mənim bəndəm təvəssül (توسل) (köməyə əlatma) və nəvafil (ixtiyari namaz) vasitəsilə mənə yaxınlaşır ki, onu sevim. Elə ki, onu sevirəm, o zaman eşitdiyi qulaq da mənəm, gördüyü göz də mənəm, söz dediyi dil də mənəm, zərbə vurduğu əl də mənəm, yol getdiyi ayaq da mənəm... Onun vurğunluğu Haqqa vurğunluğa çevrilir, Cənabi mütləqin rəsmində öz rəsmini itirir [4, s.145-199].

Bu müqəddəs hədisi müxtəlif şəkillərdə söyləyirlər və onlardan birini Həsən Bəsriyə aid edirlər. O deyir: «Əziz bir bəndənin qəlbinin məşğuliyyəti məni zikr etməkdirsə deməli onun xoşbəxtliyi və şadlığı Məni zikr etmək olacaq. Onun xoşbəxtliyi və şadlığı Məni zikr etmək olduğu zaman bəndəm Məni sevir və Mən də onu sevirəm. Onun Məni və Mənim də onu sevdiyim vaxt Mən Özümlə onun arasında olan hicabları götürəcəyəm və onun nəzərinə əlamətlərin və nişanələrin təcəllisi surətində gələcəyəm. Başqa cür insanlar məni unutduqları zaman mən bu insanları unutmayacağam. Bunlar o kəslərdir ki, sözləri peyğəmbərlərin sözləri kimidir. Elə həqiqi övliyalar da onlardırlar. Bunlar həmin kəslərdir ki, yerin sakinlərinə bəla və müsibət göndərmək istədiyim vaxt onları yad edirəm və elə bu səbəbdən də insanların üzərinə bəla və müsibət endirmirəm».

**3.4.**«Mən gizli bir xəzinə idim. İstədim tanınam. Xalqı yaratdım ki, tanınmış olam» [4, s.40].

Yuxarıda göstərilən ayələr və hədislər onu göstərir ki, irfani məsləyin və təriqətin əsası eşqdir. Bunun özü də dəfələrlə böyük təsəvvüf xadimləri tərəfindən şərh edilmişdir.

**4.Mövlananın baxışında eşq**

Mövlanının eşqinin həqiqəti dalğalı bir dənizdir ki, hər damlasının dalğadan, hər dalğasının dəryadan fərqi yoxdur. (Elə buradandır ki, hər hansı bir hekayədə verilən beytin mənası digər rəvayətdə verilən beytlə əlaqəlidir.) Mövlananı eşq dəryasına səyahətə çıxmazdan əvvəl qeyd etməliyik ki, Allah-təala tərəfindən yer üzünə göndərilən ilahi məhəbbət müxtəlif «surət»lərdə baş verir. Eşqin «sürət»lə uyğunluğu barəsində Mövlana «Fih-ma fih» əsərində deyir: «Surət eşqin şaxələridir, eşqsiz surətin qiyməti yoxdur! Şaxələnmə odur ki, əsilsiz (mənşəsiz) olmaq mümkün deyil. Allahın surətin təsvir etmirlər. Çünki surət çoxdur və onun şaxələrini demək mümkün deyil. Deyəndə ki, «Eşq surətsiz təsəvvür edilmir və mümkün deyil. Çünki surət ondan sonra gələndir». O zaman deyirik: «Nə üçün Eşq surətsiz təsvir olunmur? Eşq surətin ilhamvericisidir. Yüz minlərlə surət Eşqdən ilham alır, həm adi, həm həqiqi. Nəqqaşsız naxış olmadığı kimi, naxışsız da nəqqaş olmur. Lakin naxış şaxələrdir, Nəqqaş isə mənşə».

Mövlana yaradıcılığında təsvir olunan eşq də çoxşaxəlidir və ibtidaidən başlayıb aliyə doğru yönəlir. Mövlana eşqin tanınması haqqında deyir:

در نگجند عشق در گفت و شنید　　　عشق دریاییست قعرش نایدید
قطره های بحررا نتوان شمرد　　　هفت دریا بیش آن بحرست خرد [3, s.823]

Eşq sözə sığmaz, eşq elə bir dənizdir ki, dibi görünməz. Dənizin damlalarını saymaq mümkün deyil, Yeddi dəniz eşq dəryasının qarşısında kiçik bir dənizdir.

Dilin təsvir etməyə qadir olmadığı eşqin qarşısında yeddi dərya deyilən məqamlar kiçik bir dənizə bənzəyir. Bunun ardınca Mövlana deyir:

شرح عشق ارمن بگویم بر دوام　　　صد قیامت بگذرد، و آن نا تمام [3, s.799]

(Əgər mən eşq şərhinə davam etsəm, yüz qiyamət də gəlib keçsə də, yenə də natamam qalacaq).

Damlaları saya-hesaba gəlməyən eşq dənizinin şərhini vermək mümkün deyil. Sufinin öz həqiqətinə qovuşmaq üçün keçdiyi yolda onun məruz qaldığı məhrumiyyətlər qəlbinin paklaşması üçün baş verən mənəvi tufan və qiyamətlərdir. Tufan qopduqdan sonra, sel yuyub apardığı kimi və qiyamətdən sonra bir sakitlik yaranır və eşqin böyüklüyünü seyr, müşahidə edən salik də onu dil ilə vəsf edəcək bir halda olmur.

Mövlana deyir:

عاشقی پیداست از زاری دل　　　نیست بیماری چو بیماری دل
علت عاشق، زعلت ها جداست　　　عشق، اسطرلاب اسرار خداست

عاشقی، گر زین سرو، کر زان سراست عاقبت مارا بد آن سر رهبر است
هرچه گویم عشق را شرح و بیان چون به عشق آیم، خجل باشم از آن
گرچه تفسیر زبان روشن گراست لیك عشق بیزبان روشن تراست
چون قلم اندر نوشتن می شتافت چون به عشق آمد، قلم برخود شکافت
عقل، درشرحش چو خر در کل بخفت شرح عشق و عاشقی هم عشق گفت [3, s.17]

(Aşiqlik ürəyin iniltisindəndir, heç bir xəstəlik qəlbin xəstəliyi kimi deyildir. Aşiqin xəstəliyi bütün xəstəliklərdən ayrıdır. Eşq, Tanrının sirlərinin üstürlabıdır. Aşiqlik nə cür olursa olsun, istər bu cəhətdən, istərsə də o cəhətdən, axır-əvvəl bizi Ona doğru aparır. Eşqi şərh etmək və anlatmaq üçün nə deyirəmsə deyim, elə ki, əsl eşqə gəlib çatıram dediyim sözlərdən xəcalət çəkirəm. Dilin verdiyi təfsir nə qədər aydındırsa, dilsiz eşq ondan daha da aydındır. Qələm nə qədər yazmağa tələsirsə, eşqə gəlib çatanda çatlayır və aciz qalır. Eşqin şərhində ağıl, palçığın içində batıb qalmış uzunqulağa bənzəyir. Eşqi və aşiqliyi isə yenə də eşq şərh etdi).

«Padşah və kəniz» dastanından aydın olur ki, kənizin xəstəliyinin səbəbi onun aşiqliyidir. Heç bir fiziki xəstəlik qəlbin xəstəliyi ilə müqayisəyə gələ bilməz. Eşq Tanrı günəşinin üstürlabı, Onun ulduzları və ilahi sifətləridir. Varlığın fələyinin münəccimi olan ariflər eşq üstürlabı ilə Tanrının sirlərini və batini elmlərin təbiətinin hallarını arayıb axtarırlar. Bu yolla da yüksək həqiqətə çatırlar. Eşq istər dünyəvi olsun, istərsə də ilahi, axır-əvvəl insanı yüksək kamala doğru aparır. Eşq Haqqın sifəti və bu sifətlər də çox geniş olduğundan dil onun vəsfində geri qalır. Mövlana burada hər iki eşqi nəzərdə tutur. Şərh edərkən ağılın şərhində aciz qaldığı, qələmin sındığı, dilin təfsir etməyə qadir olmadığı eşqin şərhini yenə də eşqin özü söylədi.

عشق زنده در روان و در بصر هر دمی باشد زغنجه تازه تر
عشق آن زنده کزین کو باقیست کز شراب جان فزایت ساقیست
عشق آن بگزین که جمله انبیا یافتند از عشق او کار و کیا [3, s.22]

(Diri eşq ruhda və gözdədir ki, hər an qönçədən daha da təzə olur. O dirinin eşqini seç ki, baqidir və canına can qatan şərabın təsirindən saqilik edir. Onun eşqini seç ki, bütün peyğəmbərlər, Onun eşqindən yüksək səviyyə və ucalıq tapdılar).

Diri yəni həqiqi eşq hər an insanın ruhunda və batinində görünür. Ölməz olduğundan hər an təzələnir və qönçədən də şux görünür. O kəsin eşqini seç ki, diri və əbədidir. Cana can qatan eşq şərabından sənə içirər, eşqin çətin, cazibəli yollarından sənə söhbət açır. Həqiqi eşqə doğru get və möhkəm ol. İnsan Onun eşqini seçməlidir ki, bütün peyğəmbərlər həmin eşqin sayəsində qüdrət və səltənət sahibi, bacarıq və hökm sahibi olmuşlar. Mövlana bir qəzəlində eşq haqqında belə söyləyir:

عشق را از من مپرس، از کس مپرس، از عشق پرس [3, s.147]

(Eşqi məndən soruşma, bir başqasından soruşma, eşqin özündən soruş).

**5.Nəticə**

Mövlana Cəlaləddin Rumi yaradıcılığında ilahi eşq və onun Yer Üzərində təzahür formaları geniş və çoxşaxəli şəkildə təsvir olunur.

Ulu Tanrımız dünyamızın özülünü eşqlə qoymuşdur. Yer üzündə ilahi eşqdən başqa hər nə varsa hamısı fanidir. Təmiz, pak eşqə isə hamı malik ola bilməz. Mayası eşqlə yoğrulan kainat və insan elə yaradılmışlar ki, onların hər bir zərrəsində İlahi eşq durur. Eşqin özü güclü cazibə qüvvəsinə malik olduğundan kainatda hər şey bir-birini çəkir. Ən böyük çəkici qüvvə isə Mütləq eşq olduğundan hər şey ona doğru yönəlir. Zəka, ağıl, mərifət və həqiqi eşq və paklıq əta olunmuş həqiqi aşiq arif üçün maddi və cismani hər şey öz qiymətini itirir və axır həddə yalnız Tanrıya olan sevgi və Tanrı vardır.

## ƏDƏBİYYAT

**1.** *Qurani-kərim*. (1991). Bakı.
**2.** رومی، شیخ احمد. (1330). *دقایق الحقایق*. تهران.
**3.** رومی، جلال‌الدین. (1372). *مثنوی معنوی*. تهران.
**4.** ستاری، جلال. (1373). *عشق صوفیانه*. تهران.
**5.** نوربخش، جواد. (1353). *عشق*. تهران.
**6.** نیکلسن، رینولد. (1373). *تفسیر مثنوی مولوی*. تهران.

## REFERENCES

**1.** *The Holy Quran.* (1991). Baku. (in Azerbaijani)
**2.** Rumi, Sh. A. (1951). *The subtleties of the truths*. Tehran. (in Persian)
**3.** Rumi, Jalal al-Din. (1993). *Masnavi-i ma’navi*. Tehran. (in Persian)
**4.** Setari, J. (1994). *Sufi love*. Tehran. (in Persian)
**5.** Noorbakhsh, J. (1974). *Love*. Tehran. (in Persian)
**6.** Nicholson, R. (1994). *Interpretation of Rumi’s Masnavi*. Tehran. (in Persian)